# Adil Cəmil poeziyasına yeni baxış




Şair, publisist Vaqif İsaqoğlunun bu yaxınlarda növbəti monoqrafiyası - "Adil Cəmilin poeziyası" kitabı işıq üzü görüb. "Yetmişincilər" ədəbi nəslinə mənsub tanınmış, istedadlı şair A.Cəmilin zəngin və çoxcəhətli yaradıcılığı, onun keçdiyi sənət yolunun ayrı-ayrı mərhələləri müəllif tərəfindən konkret və obyektiv təhlilə cəlb olunur. "Haqqa könül verən haqq şairi", "Adil Cəmilin poetik dünyası", "Vətən duyğulu, təbiət ətirli şeirlər", "Eşqsiz ey dünya, nədir dəyərin", "Dərdin Adil Cəmil zirvəsi", "Hər uşaq aləmi bir dünyadır", "Turan dünyasının şairi" adlanan fəsillərdə V.İsaqoğlu haqqında bəhs etdiyi şairin lirik-fəlsəfi şeirlərinin, poemalarının məna-məzmun xüsusiyyətlərini, ideya-estetik mahiyyətini incələməklə müasirimizin poetik özünəməxsusluğuna işıq salan sanballı bir kitab ərsəyə gətirib. "İmza" nəşrlər evinin çapdan buraxdığı kitabın redaktoru şair, publisist Sərvaz Hüseynoğludur.



Ədəbiyyat qəzeti.- 2022- ci il.- 23 iyul.- S. 26